**UOT008 (091)**

***Sahib Vəliyev***
***Tarix üzrə fəlsəfə doktoru***
***Azərbaycan Dövlət Mədəniyyət və***
***İncəsənət Universitetinin baş müəllimi***
**E-mail: s.valiyev70@gmail.com**

# ARXEOLOGİYA ELMİNİN DƏRKİ ÜÇÜN ZƏRURİ OLAN DÜŞÜNMƏ PROSESLƏRİ

**Xülasə:** Azərbaycan arxeologiyasının mürəkkəb və ziddiyətli məsələləri arxeologiya elminin dərki üçün zəruri olan düşünmə prosesidir. Arxeologiya elminin təşəkkülü və inkişaf mərhələləri isə arxeologiyanın əsas istiqamətlərindən biridir. Tarixi abidələrə, yaşayış yerlərinə, milli mənəvi dəyərlərimizə və onun tarixi yadigarlarının qorunub saxlanılmasına xüsusi diqqət və qayğının göstərilməsi öndə duran məsələlərdəndir. Arxeoloji tədqiqatlar və qazıntılar zamanı aşkar edilmiş əşyalar Azərbaycanın maddi-mədəniyyət tarixini öyrənməyə imkan vermişdir. Tarixi qaynaqlar və ekspedisiyalar zamanı toplanan etnoqrafik materiallar əsasında adət-ənənələr, yaşayış yerləri və formaları, maddi-mənəvi mədəniyyət, keçmiş idarə formaları, ailə münasibətləri, yaşayış tərzləri və sairə öyrənilir.

**Açar sözlər:** mənəviyyat, mədəniyyət, milli-mənəvi dəyərlər, ideologiya, tarix və arxeologiya.

Azərbaycanın qədim tarixi arxeoloji, etnoqrafik, antropoloji və yazılı qaynaqlar əsasında yazılır. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş əşyalar Azərbaycanın maddi-mədəniyyət tarixini öyrənməyə imkan vermişdir. Tarixi qaynaqlar və ekspedisyalar zamanı toplanan etnoqrafik materiallar əsasında adət-ənənələr, maddi-mənəvi mədəniyyət, keçmiş idarə formaları, ailə münasibətləri və sairə öyrənilir.(1,s.7)

Antropoloji materiallar-qazıntılar zamanı əldə edilmiş insan kəllə sümükləri etnogenez məsələsinin tədqiqi üçün çox əhəmiyyətlidir. Qaynaqlar içərisində yazılı mənbələr xüsusi elmi əhəmiyyətə malikdir. Onlar Azərbaycandakı siyasi hadisələri, dövlət qanunlarını, iqtisadiyyatı, təsərrüfatı, sənətkarlığı, peşələri, tarixi şəxsiyyətləri, hərb tarixini, xalq hərəkatını, dini təsvirləri və s. öyrənməyə imkan verir.(2,s.12; 6, s 45)

Azərbaycan adı qaynaqlarda ta qədimdən başlayaraq Andirpatian, Atropatena, Adribican, Azirbican və nəhayət Azərbaycan şəklində işlənmişdir.

Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii coğrafi şəraiti (şirin su qaynaqları, bitki və heyvanat aləminin zənginliyi təbii mağaraların olması) hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına imkan yaratmışdır.(3,s.9)

Qədim insanların yaşadıqları düşərgələr Qarabağ, Qazax, Naxcıvan, Kəlbəcər, Lerik, Yardımlı bölgələrində aşkar edilmişdir. Qarabağda Azıx, Tağılar, Kəlbəcərdə Zar, Naxçıvanda Qazma, Qazaxda Daşsalahlı, Damcılı, Lerikdə Buzeyir mağaralarında tapılmış əmək alətləri, silahlar və ovlanmış heyvanların sümükləri əsasında daş dövrü insanlarının həyatı öyrənilmişdir.(2,s. 219;4,s.16)

İnsanların həyat tərzi Qarabağın Quruçay vadisinə, Füzuli rayonu yaxınlığında yerləşən Azıx mağarasında əldə edilən materiallar əsasında öyrənilmişdir.

Mağaranın ən qədim dövrə aid təbəqələrində ibtidai insanların işlərdikləri kobud daş alətlər tapılmışdır. Bu alətlər adi çay daşlarından hazırlanmışdır. İbtidai insanlar bu alətlərdən ovladıqları heyvanı kəsmək, doğramaq işlərində istifadə etmişlər.

Minillər keçdikcə ibtidai insanlar fiziki və əqli cəhətdən xeyli inkişaf etmişlər. Əmək alətləri təkmilləşdirilmişdir. İlk vaxtlar insanlar çox işlərə yarayan kobud əl çapacaqları, sonralar isə ərsin-qaşov, sıyırğac və sairə daş alətlər hazırlanmışdır. Belə alətlər Azıx mağarasının alt təbəqələrindən tapılmışdır. Mağaradan nəsli kəsilmiş müxtəlif vəhşi heyvanların sümükləri də tapılmışdır. Bu sümüklərə əsasən, qədim insanların ovladığı vəhşi heyvanların növləri müəyyənləşdirilmişdir.(5,s.66)

Arxeoloji tədqiqatlar əsasında elmi araşdırmalar bir daha sübut edir ki, Azərbaycan ərazisi dünyanın ən qədim yaşayış və mədəniyyət ocaqlarından biridir. Arxeoloji tədqiqatların və arxeoloji qazıntıların nəticəsində əldə olunan maddi mədəniyyət nümunələrinin tədqiq edilməsi və problemin elmi-nəzəri kontekstdə araşdırılıb fundamental iş şəklində təqdim olunması aktual məsələ kimi ortalığa qoyula bilər. (6,s.45)

Maddi mədəniyyətin inkişafında göstərilən araşdırmalar və tədqiq olunanlar ayrı-ayrı tarixçilər və milli arxeoloqlarımız tərəfindən Azərbaycanın əlverişli təbii şəraiti olduğunu – burada çayların, göllərin, şirin su hövzələrinin olması ibtidai insanların burada məskən salmasına səbəb olmuşdur. Qədim yaşayış yerlərində bu gün də milli arxeoloqlarımız tərəfindən araşdırmaların aparılması tariximizin hələ də açılmayan səhifələrinin olmasını sübut edir.(7,s.76)

Arxeloqların aşkar etdikləri maddi-mədəniyyət nümunələri və qalıqlar müasir arxeologiyamızın formalaşmasına mühüm təsir göstərir. Tədqiqat üçün əhəmiyyətli olan mənbələr Arxeologiya elmini dərki üçün zəruri olan düşünmə prosesidir.

Azərbaycan arxeologiyasının qədim tarixində maddi-mədəniyyət nümunələrinin formalaşması bu günkü günün də əsas məsələlərindən biridir.

Arxeologiya elmi onu da sübut edir ki, Azərbaycan ərazisi təbii zənginliyi, münbit torpaqları, burada əhalinin sayının çox olması və müxtəlif təsərüffat sahələri ilə məşğul olmalarını təsdiq edir.

Qədim yaşayış yerlərindən aşkarlanan məmulatlar onu da təsdiq edir ki, Azərbaycan ərazisi zəngin faydalı qazıntı yataqlarıdır. Eyni zamanda Arxoeloji tapıntılar onu da sübut edir ki, Azərbaycanda sənətkarlıq və ticarət yüksək səviyyədə inkişaf etmişdir. Buna misal olaraq arxeoloji qazıntılar zamanı əldə olunan dəyərli metal və gil qabları, müxtəlif silahları, bəzək əşyalarını göstərmək olar. Arxeologiyanın inkişafı nəticəsində tarixində həm də maddi mədəniyyətin inkişafı daha dolğun şəkildə göstərilməkdədir.(8,s.32)

Arxeoloji qazıntılar zamanı tapılmış minlərlə maddi-mədəniyyət nümunələri qədimdə yaşayan insanların mənəvi səviyyəsinin yüksək olduğunu, aşkarlanan nümunələrdə göstərir və əhalinin kasıb, varlı təbəqələrə bölündüyünü qəbirlərdən tapılan müxtəlif bəzək əşyaları, geyim formaları, silah növləri və qəbirlərin quruluşu bunu təsdiq edir.

Tarix elminin bölməsi kimi arxeologiyanın qısa xülasələri, maddi mədəniyyət nümunələri tarixi mənbələr, onların əsasında aparılan araşdırmalar, edilən müzakirələr və verilən qərarlar arxeologiya elminin formalaşmasında öz töhfəsini vermişdir. Əldə olunan elmi nəticələr tarixçilərin və arxeoloqların elmi yeniliklərinə çevrilmişdir. Arxeologiya elminin formalaşması ictimai-iqtisadi formalaşmanın inkişafında mühüm bir məsələ kimi tədqiqat obyektinə çevrilərək məqalədə təfsilatı ilə gündəmə gətirilmişdir. Azərbaycan arxeologiyasının konkret tarixinin ifadəsi arxeoloji tədqiqatın və arxeoloji qazıntının əsas meyarı kimi məqalədə öz əksini tapmışdır. Ölkəmizdə müxtəlif dövrlərin və müxtəlif sahələrin arxeoloji materialları əsasında tariximizin nə qədər qədim və zəngin olması da məqalənin ön plana çəkdiyi mövzunun aktuallığını təşkil edir. (9,s.49)

Arxeologiya elminin dərki üçün zəruri olan düşünmə prosesi Aəzrbaycan arxoelogiyasının mürəkkəb və ziddiyətli məsələlərini təşkil edir. Misal üçün göstərə bilərik ki, bəzi müəlliflərin apardıqları araşdırmalar, arxeoloji tədqiqatlar və arxeoloji qazıntılar nəticəsində gəldikləri qənaətə görə, Atropatena əhalisinin böyük bir qismini aborigen türk tayfaları əsasında formalaşmış atropatenlilər təşkil edirdi və Atropatena tarixi Azərbaycan torpaqlarının bir hissəsində Azərbaycan türklərinin ulu əcdadları olan atropatenlilər tərəfindən yaradılmış bir dövlət olmaqla, nəhəng Midiya dövlətinin həm siyasi, həm də etnik varisi olduğu qeyd olunur.(10,s.55)

Arxeologiya elminin dərki üçün zəruri olan düşünmə prosesində insan düşüncəsindəki keçidin inkişaf prosesi izlənir və arxeoloji mədəniyyətlər xarakterizə edilir. Arxeoloji qazıntılar zamanı potensial imkanların zəif olması müəyyən sutrukturlarda təhlil obyektinə çevrilir.

Azərbaycan ərazisində aparılmış arxeoloji tədqiqatlar əsasında Respublikamızın ərazisində yaşamış ibtidai insanların meydana gəlməsi, formalaşması, inkişaf mərhələləri, əmək alətləri hazırlanması, ovçuluq, yığıcılıq təsərrüfatının xüsusiyyətləri, ibtidai yaşayış tikililərinin yaranması, odun kəşf

olunması, öz istək və arzularını qayalar üzərinə həkk etməsi və Qarabağın arxeoloji mədəniyyətlərinin xarakterik xüsusiyyətləri arxeologiya elminin dərki üçün zəruri olan düşünmə prosesidir.(2,s.7; 11,s.78)

Respublikamızın ərazisində eneolit dövrü istesal təsərrüfatının meydana çıxıb inkişaf etməsi, duluzçuluğun, toxuculuğun, əkinçilik, maldarlığın təşəkkülü və inkişafı, otraq həyat tərzinin yaranması, insanların mənəvi həyatında yeniliklərin baş verməsi arxeoloji tapıntılarla xarakterizə olunur. Aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, eneolit dövründə insanlar bəşər tarixində ilk dəfə olaraq metal işləmə ilə tanış olaraq ondan əmək alətləri hazırlamağa başlamış, ibtidai icma cəmiyyətində ana xaqanlığı hökmran olmuş, ətraf aləmlə təmasda olmaq prosesi təşəkkül tapmış, inkişaf etmiş, sənətkarlıq formalaşmış və insanlarda əmək vərdişləri təkmilləşməyə başlamışdır.(2,s.8; 12,s.83)

Azərbaycan Respublikasının ərazisində son 55 il ərzində aparılan arxeoloji tədqiqatlar nəticəsində ilk ibtidai insanların məskünlaşmasına aid zəngin arxeoloji, paleontoloji və paleontropoloji mareriallar aşkar edilmişdir. Həmin elmi tədqiqatlar əsasında respublikamızın ərazisi ibtidai insanın formalaşdığı ərazilər sırasına daxil edilmişdir. Aparılan kompleks arxeoloji tədqiqatlar nəricəsində Azərbaycan ərazisində ilk ibtidai insanların 2-2,5 milyon il bundan əvvəl məskunlaşmağa başlamaları elmi faktlarla sübuta yetirilmişdir.(2,s.12;13,s.180)

1981-ci il dekabrın 8-də Fransanın paytaxtı Paris şəhərində olan İnsan muzeyində “Avropanın ilk sakinləri” adlı sərgi təşkil edilmişdir. Sərgidə dünyanın ən qədim insan düşərgələrindən aşkar olunmuş arxeoloji və paleontroploji tapıntılar nümayiş etdirilmişdir. Sərgidə keçmiş SSRİ-dən ancaq Azıx və Tağılar paleolit düşərgələrindən aşkar olunmuş maddi mədəniyyət qalıqları üçün ayrıca guşə ayrılmışdır. Arxeololi materiallar içərisində Quruçay, Aşel, Mustey mədəniyyətlərinin və həmçinin azxantropun alt çənəsi xüsusi maraq doğurmuşdur.(2,s.13;14,s.86)

Arxeologiya elminin dərki üçün zəruri olan düşünmə proseslərindən biri də aparılan arxeoloji tədqiqatlar zamanı mezolit və neolit dövrlərinin əsas daş məmulatlarının oxşarlığının müəyyən edilməsi, Qobustanda əhalinin tarixi-mənəvi inkişaf ənənələrindəki varisliyə və min illərlə burada yaşayan qəbilələrin eyni etnik qrupa daxil olmasıdır.(2,s.131)

Azərbaycanın Daş dövrü düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqları bəşər sivlizasiyasının tarixini təqdim etmək üçün əvəzsiz arxeoloji mənbələrdir. Məhz bunu əsas tutan Fransa, İtaliya, İspaniya, Rusiya, Azərbaycan, Hollandiya və Gürcüstan alimləri 2001-ci ildə Beynəlxalq İNTAS-2000 adlı proqram hazırlamışlar. Proqram 2001-ci ilin iyul ayında Fransanın Totavel şəhərində keçirilən beynəlxalq elmi konfrasda təsdiq olunmuşdur.(2,s.131;15,s.176)

2002-ci il sentyabrın 7-dən oktyabrın 1-dək Beynəlxalq İNTAS-2000 proqramına uyğun olaraq Avropa ölkələrindən 22 görkəmli alim başda professor Henri dö Lümley olmaqla Bakıya gəlib çoxtəbəqəli Azıx, Tağılar, Qazma və digər düşərgələrdən tapılmış maddi mədəniyyət qalıqları ilə tanış olmuş və bu tapıntıların

dünya arxeologiya, paleontologiya və paleoantrologiya elmləri üçün müstəsna elmi əhəmiyyəti olduğunu yekdilliklə qeyd etmələri arxeologiya elminin dərki üçün zəruri olan düşünmə prosesinə və Azərbaycan arxeologiyasının mürəkkəb və ziddiyətli məsələlərini təşkilinə işıq salmışdır. (2,s.14;4,s.133;18,s.105)

Son illərdə respublikamızın iqtisadi imkanlarının genişlənməsi qədim tarixmizin yadigarları olan arxeoloji abidələrimizin tədqiqinə və təbliğinə geniş imkanlar açıb. Yaradılan əlverişil şərait nəticəsində ölkəmizin tarixi keçmişinə diqqət xeyli artmış, bu da arxeoloji abidələrin tədqiqinə yeni stimul vermişdir. Azərbaycan tarixinə və arxeologiyasına göstərilən həssas qayğı sayəsində bu sahədə xeyli yeni faktlar toplanmışdır. Azərbaycan tarixinin öyrənilməsində, qədim mədəniyyətə malik xalqımızın həm də nadir sayılan arxeoloji abidələri yaradıb-yaşatmasında və s. bu kimi faktorların araşdırılmasında qazıntılar üzə çıxan zaman tapıntıların qiyməti ölçüyəgəlməzdir. Abidələrimizin təbliği sahəsində də mühüm işlər görülmüşdür. Bəzi arxeoloji-tarixi abidələrimiz turizm marşrutlarına cəlb edilir və bu sahədə xeyli irəliləyişlər olunmuşdur.

2009-cu ildən başlayaraq arxeoloji tədqiqatlara geniş imkan yaradılmışdır. Olkəmizdə arxeoloji tədqiqatların cəmləşdiyi əsas elmi mərkəz olan AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu bir çox sərhəd bölgələrində olduğu kimi, Gədəbəy, Qazax və Ağstafa rayonları ərazisində də elmi ekspedisiyanın fəaliyyətini bərpa edərək bölgədə irimiqyaslı tədqiqatlar həyata keçirilir. Arxeoloji ekspedisiya Gədəbəy və Qazax rayonunun neolit və tunc dövrü abidələrini, yaşayış yerlərinin yerləşmə xüsusiyyətlərini və abidələrin coğrafi arealını, əhali məskunlaşmasını tədqiq edir, əldə olunan maddi-mədəniyyət qalıqları əsasında ərazidə yaşayan qədim sakinlərin təsərrüfat həyatını və məşğuliyyətini öyrənir, qədim dövlətçilik tarixini araşdırır (15,s.105).

## Ədəbiyyat:

1. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı; "Elm", 1998. 520 s
2. Azərbaycan arxeologiyası I cild (VI cilddən ibarətdir) Bakı; "Şərq-Qərb",2008, 445s.
3. Bünyadov T.Ə. Azərbaycan arxeologiyasının oçerkləri. Bakı, Azərnəşr, 1960, 236 s.
4. Cəfərzadə İ.M. Azərbaycan tarixinin ən qədim dövrü. Bakı: "Elm", 2007, 520 s
5. Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1989. 157 s
6. Cəfərov Ə.Q. Quruçay dərəsində. Bakı; Azərnəşr, 1990, 156 s
7. Cəfərov Ə.Q. İnsanlığın səhəri. Bakı; Azərnəşr, 1994. 114 s
8. Cəfərov Ə.Q, İsmayılov C. S. Damcılıda üst paleolit / 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı: "Elm", 2005. 31-39 s

9. Əliyev İ.H. Dağlıq Qarabağ, tarix, faktlar, hadisələr. Bakı: "Elm", 1989. 120 s
10. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı: "Elm", 1992, 86 s.
11. Hüseynov M.M., İsmayılov Q.S. Azıx və Tağılar mağaralarından aşkar olunmuş eneolit dövrü tapıntıları // Tarix, fəlsəfə və hüquq seriyası. Bakı: Maarif, 1967, № 1.s 77-85
12. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı: Elm, 1979, 259 s.
13. Hüseynov M.M. Şorsu dərəsində tapılmış daş dövrünə aid ilk materiallar / Azərbaycan SSR Elmlər Akademiyasının məruzələri, XI cild, Bakı: Maarif, 1955 səh.179-186
14. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı: Azərnəşr, 1981, 144 s.
15. İsmayılzadə İ. Arxeologiyanın çöl gündəliyindən. Bakı; Xəzər Universiteti Nəşriyyatı, 2009, 200 s
16. Mənsurov M.M. Ceyrançölundə ilk paleolit tapıntıları // "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı, Bakı: "Şərq-Qərb", 2007, № 1, səh.17-23
17. Rüstəmov Ç.N. Qobustan dünyası. Bakı: Azərnəşr, 1994, 176 s.
18. Şükürov.K.K. Türkmənçay.(Tarixi xronika) Bakı:"Çaşıoğlu",2006, 188.s

**Сахиб Велиев**

**Роль науки археологии в изучении истории культуры Азербаджана**

**Резюме**

Наука археология имеет важное значение для изучения материального и духовного наследия Азербайджана. Сохранение и защита исторических памятников, национально-духовных ценностей является одной из актуальных задач современности. Предметы, найденные в ходе раскопок позволяют всесторонне изучить историю быта и культуры Азербайджана.

**Ключевые слова:** культура, наследие, национально-духовные ценности, идеология, история, археология.

**Sahib Veliyev**

**The role of the science of archeology in the study of cultural history of Azerbaijan**

**Summary**

The science of archaeology is essential for learning the material and spiritual heritage of Azerbaijan. The preservation and protection of historical monuments of national and spiritual values is one of the urgent tasks of our time. The objects found during the excavations allow you to study the history of the life and culture of Azerbaijan.

**Keywords:** culture, heritage, national and spiritual values, ideology, history, archeology.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.02.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.02.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**